## Vergilər Nazirliyi gənc kadrların sayının artırılmasında maraqlıdır

Vergilər Nazirliyi vergi orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edib. İşə qəbul prosesi, kadr resurslarının idarə olunması və s. məsələlərlə bağlı suallarla Vergilər Nazirliyinin İnsan resursları idarəsinin rəisi Faiq Şahbazova müraciət etdik:

***- Faiq müəllim, son illərdə Vergilər Nazirliyi insan resurslarının idarə olunması, kadr ehtiyatlarının gəncləşdirilməsi, təkmilləşdirilməsi, onların yenidən hazırlanması istiqamətində hansı tədbirləri həyata keçirir?***

- Azərbaycan Respublikasının dinamik inkişafı onun dövlət qurumlarının inkişafı ilə sıx bağlıdır. Bu inkişaf yolunda Vergilər Nazirliyinin də qarşısında bir sıra vəzifələr qoyulmuşdur. İnsan resursları idarəsinin üzərinə düşən vəzifələrdən biri mövcud idarəetmənin təkmilləşdirilməsi ilə yanaşı, gənc kadrların müasir idarəetmə sisteminə cəlb olunması, fərqlənən işçilərin irəli çəkilməsi, kadr ehtiyatının yaradılmasıdır. 2011-ci ilin əvvəllərindən bu istiqamətdə konkret işlərin həyata keşirilməsinə başlanılmışdır. İlkin olaraq mütəxəssislərin qiymətləndirmə üzrə reytinq balı, 2010-cu ildə keçirilmiş attestasiya üzrə yekun nəticələr, attestasiyaya təqdim edilmiş xasiyyətnamələr və digər göstəricilər əsasında mütəxəssislərdən ibarət kadr ehtiyatının yaradılması məqsədilə seçim aparılmış və həmin əməkdaşlar layihə barədə məlumatlandırılmış, idarəetmə bacarıqlarını müəyyən edən suallar əsasında onların idarəetmə və intellektual bilikləri yoxlanılmışdır.

Əsasən, gənc kadrlardan ibarət olan 55 nəfərdən 12 nəfəri artıq rəhbər vəzifələrə təyin olunmuşdur. Gələcəkdə rəhbər vəzifələrə təyinat almaları üçün qalan kadrlarımızla da mütəmadi təkmilləşdirmə aparılaraq onların hazırlığı artırılır.

***- Vergilər Nazirliyi kadr ehtiyatlarının formalaşdırılması prosesinin tam şəffaflıq şəraitində baş verməsi üçün işə qəbul prosesini test üsulu ilə həyata keçirən ilk dövlət qurumlarından biridir...***

- Vergilər Nazirliyi dövlət orqanları arasında ilk dəfə olaraq müsabiqə yolu ilə işə qəbula 2003-cü ildən başlamış, 15 aprel 2005-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə müsabiqənin Əsasnaməsi təsdiq edilmişdir. Qeyd olunan fərmanın qüvvəyə minməsindən sonra yeddi dəfə müsabiqə keçirilmişdir. Bu müsabiqələr nəticəsində 750 nəfər işlə təmin olunmuşdur. Bu isə vergi orqanı əməkdaşlarının 30%-dən çoxunu təşkil edir. İşə qəbulla əlaqədar müsabiqəyə sənədlərin təqdim edilməsi 2008-ci ildən etibarən yenə də dövlət orqanları arasında ilk dəfə Vergilər Nazirliyi tərəfindən elektron ərizə formasında aparılmışdır. İnformasiya texnologiyalarından geniş istifadə şəffaflığın artırılması və vətəndaşların rahatlığının təmin olunması ilə yanaşı, rayonlarda yaşayan gənclərin sənədlərini paytaxta gəlmədən təqdim edilməsinə şərait yaratmışdır.

***- Bu il yeni kadrların Vergilər Nazirliyində işə götürülməsi məqsədilə müsabiqənin keçirilməsi nəzərdə tutulur...***

- Bəli, bu il də müsabiqə keçiriləcək. Artıq vergilər nazirinin əmrinə əsasən, yerli vergi orqanlarında vakant vəzifələrin tutulması üçün 8-ci müsabiqə elan edilib. Müsabiqə ərazi vergilər idarələrində və rayon vergilər şöbələrində boş iş yerlərinin tutulması məqsədi ilə elan edilib. Hələlik 34 vakant iş yeri müəyyən olunub. Lakin müsabiqənin sonuna qədər vakant yerlərin sayı dəyişə bilər. Müsabiqə üçün sənəd qəbulu oktyabrın 15-dən noyabrın 11-dək aparılacaq. Müsabiqə çərçivəsində test imtahanı dekabrın 2-də TQDK-nın müəyyən etdiyi yerdə keçiriləcək. Müsahibə mərhələsi isə dekabrın 11-də başlayacaq. Ümumiyyətlə, müsabiqənin bu ilin sonuna tam yekunlaşdırılması və 2013-cü ildən gənc kadrların təyinatına başlanması nəzərdə tutulur.

AYTƏN